**Əlavə məlumat**

## Əlillərin hüquqlarının müdafiəsi üzrə konvensiya insan hüquqları sahəsində olan boşluğu aradan qaldırır

Birləşmiş Millətlər Təşkilatı tərəfindən qadınların, uşaqların, miqrant işçilərin və əhalinin digər təbəqələrinin hüquqlarının müdafiəsi üzrə yeddi konvensiya qəbul edilmişdir. Lakin, 3 may 2008-ci il tarixində qəbul edilmiş əlil şəxslərin hüquqları haqda Konvensiyanın qəbuluna qədər, dünya əhalisinin ən az hissəsini təşkil edən məhdud imkanları olan insanların üçün heç bir xüsusi beynəlxalq müqavilə yox idi.

Əksər insanlar belə hesab edirdilər ki, mövcud konvensiyalar digər insanların hüquqları ilə yanaşı əlil şəxslərin də hüquqlarını müdafiə edir. Lakin, buna baxmayaraq aydın olurdu ki, bu hüquqları təsdiq etmək üçün hüquqi əhəmiyyət daşıyan müqavilələr olmadan əlil insanlar qanunda yaşadıqları cəmiyyətdə və beynəlxalq səviyyədə "gözəgörünməz" olaraq qalırdılar. Bunun nəticəsində bir çox əlil şəxslər gündəlik həyatlarında böyük çətinliklər və ayrı-seçkilik ilə qarşılaşırdılar.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən dünyada təqribən 650 milyon nəfər insan (dünya əhalisinin təqribən 10% - ) müxtəlif dərəcəli əlillikdən əziyyət çəkirlər. Əlillərin 8%-ı (təqribən 400 milyon insan) onların ehtiyaclarının qarşılanması üçün imkanların az olduğu yoxsul ölkələrdə yaşayırlar. Dünya üzrə əlillər cəmiyyətə inteqrasiya etməkdə çətinliklə üzləşir, eyni zamanda, aşağı həyat səviyyəsindən əziyyət çəkirlər.

Əgər əlil insanların ətrafında olan yaxın insanlarını da nəzərdə tutsaq, əlilliklə əlaqədar problemlərlə üzləşən insanların sayı milyardı aşır. Əlilliyin, yoxsulluq göstəricilərinə təsirini, təhsildən və səhiyyə vasitələrindən istifadəni məhdudlaşdırmasını, həmçinin əlillərin və onların ailələrinin ictimai ayrı-seçkiliyə məruz qaldıqlarını nəzərdə tutsaq, onda bu məsələnin nə dərəcədə mühüm olduğunu başa düşmək olar.

Maddə 1-də göstərildiyi kimi, Konvensiyanın əsas məqsədi "əlil insanlara insan hüquqlarından və əsas azadlıqlarından tam və bərabər imkanlarla yararlanmalarına təkan vermək, bunu müdafiə və təmin etmək, habelə onların ləyaqətinə hörmətlə yanaşılmasını dəstəkləməsi"-dir.

Konvensiya əlillərin ictimaiyyət tərəfindən qəbul edilməsində mühüm irəliləyişi nəzərdə tutur, belə ki, hər bir şəxs öz həyatında mühüm qərarlar qəbul etməkdə yeganə məsul insandır. Bunun əsasında əlil insanlar özlərinə aidiyyatı olan plan və siyasətin tərtib olunması və həyata keçirilməsi üçün tam hüquqla təmin olunaraq, "hüquq daşıyıcıları" və "hüquqi subyektə" çevrilirlər.

**Əlillik – cəmiyyət tərəfindən yaradılan problemdir**

Konvensiya, əsas diqqəti maddi rifahdan, əlillərin fərd kimi ictimai həyatda iştirakı, səhiyyə, təhsil, məşğulluq və inkişaf resurslarından istifadəsini məhdudlaşdıran bərabərlik və sosial baryerlərin müəyyənləşdirilməsi probleminə yönəldir.

Konvensiyanı ratifikasiya edən ölkələr əlillərə təkcə zərər çəkmiş ictimai azlıq kimi yox, dəqiq müəyyənləşdirilmiş hüquqlara malik olan hüquq subyektləri kimi davranmağa hüquqi məsuliyyət daşıyırlar. Bu ölkələr, eyni zamanda yerli qanunvericiliklər müqavilədə nəzərdə tutulan beynəlxalq standartlar ilə uyğunlaşdırmaq üçün öhdəlik daşıyırlar.

Uzun illər davam edən ayrı-seçkilikdən sonra Konvensiya, "əlil insanların problemlərinin nəzərdə tutulduğu" və bütün vətəndaşların bərabərliyinin təbliğ edildiyi insan hüquqları standartlarını müəyyən edilməsi və onların cəmiyyətdə tətbiqini təsdiqləyir.

Konvensiya, əlilliyi insana məxsus keyfiyyət kimi yox, fərdin və uyğun olmayan mühitin qarşılıqlı təsirinin nəticəsi kimi göstərir. Bu halda əlilliyin köhnə "tibbi modeli" məhdud fiziki imkanları olan insanların öz hüquqlarını həyata keçirməkdə imkanlarının ətraf mühit tərəfindən məhdudlaşdırılmasını nəzərə alaraq insan hüquqlarının müdafiəsi prinsiplərinə əsaslanan sosial model ilə əvəz olunur.

ÜST-nın tərkibində Beynəlxalq təsnifatın əlilliyi müəyyən etməyinin sosial rakursdan göstərən yanaşmada əlliliyi müəyyən azlığın deyil, ümumilikdə cəmiyyətin problemi kimi müəyyən edir: hər kəs sonda əlilliklə nəticələnən sağlamlığı ilə problemləri ola bilər.

**Konvensiya əlillərin hüquqları sahəsində ümumdünya standartlarını müəyyən edir.**
ÜST-ün müəyyən etdiyi kimi, əlilliyi olan şəxslərin sayı getdikcə artır. Bu növ artımı dünya əhalisinin sayının artması, səhiyyənin inkişafı və dünya əhalisinin qocalması ilə də əlaqələndirmək olar. Orta yaş həddi 70 yaş olan ölkələrdə təqribən 8 il müddətində insanlar əlillikdən əziyyət çəkirlər, bu da onların həyatının 11,5%-ni təşkil edir.

Bir sıra ölkələrdə hələ də əlillik barədə qanun yoxdur. Parlamentlərarası birliyin məlumatlarına əsasən yalnız ölkələrin üçdə-birində əlillərin hüquqlarını müdafiə edən xüsusi qanunlar mövcuddur. Konvensiya, müəyyən olunmuş standartlara cavab vermək üçün, hökumətləri oxşar hüquq normaları yaratmağa və ya mövcud qanunvericiliyə dəyişikliklər etməyə çağırır.

Konvensiyanın əlavə müsbət tərəfləri də mövcuddur. Konvensiya, əlillərin hüquqları sahəsində universal hüquqi standartları müəyyən edir; insan hüquqlarının əsas prinsiplərinin mahiyyətini və əlillərə aid olan vəziyyətlərdə onların tətbiqini aydınlaşdırır; milli qanunvericilik və dövlət siyasəti üçün dayaq rolunu oynayır; uyğun ekspert orqanı tərəfindən aparılan nəzarət, eyni zamanda dövlətlərin hökumətləri və qeyri-hökumət təşkilatları tərəfindən konvensiyanın şərtlərinin həyata keçirilməsi barədə hesabatların hazırlanmasını nəzərdə tutan effektiv monitorinq mexanizmi təklif edir; eyni zamanda, beynəlxalq əməkdaşlıq üçün zəmin yaradır. Bu, həmçinin, Konvensiyanı ratifikasiya etməmiş ölkələrdə uyğun ictimai fikrin formalaşdırılmasına yardım edir.

Bu Konvensiya əlillərin reproduktiv sağlamlığını da nəzərdə tutur. Bu cəhətdən Konvensiya cinsi və reproduktiv sağlamlığı nəzərdə tutan insan hüquqları sahəsində ilk beynəlxalq müqavilədir. Aparılan tədqiqatların nəticələrinə əsasən, əlillər cinsi və fiziki zorakılıq hallar ilə üç dəfə çox qarşılaşırlar, eyni zamanda, onlar HİVAİDS riski ilə daha tez-tez qarşılaşırlar.

Danışıqlarda əlil təşkilatların nümayəndələri iştirak etmişdirlər və Konvensiyanın layihəsinə öz əhəmiyyətli töhfələrini vermişdirlər. Konvensiya müqavilənin şərtlərinin həyata keçirilməsi və bu prosesin monitorinqini həyata keçirən müstəqil dövlət strukturlarının yaradılmasını nəzərdə tutur. Əlillər və əlil təşkilatların nümayəndələri bu strukturların tərkibinə daxil olmalıdırlar.

**Əlillər müdafiə vasitəsi əldə edirlər**

Könüllü protokolu ratifikasiya etmiş ölkələr üçün ekspertlərdən ibarət qrup məsələnin həll olunması üçün ölkə daxilində bütün imkanların tükəndiyi halda müqavilənin şərtlərinin uyğun şəkildə həyata keçirilməməyi barədə fərdi və ya qrup adından təqdim edilmiş şikayətlərə baxacaq.

Konvensiyaya əsasən əlillər hüquqlarının müdafiələri üçün güclü vasitə əldə edirlər. "Təkcə Konvensiyanın mövcudluğu əlillərə, onların təşkilatlarına öz ölkələrinin Konvensiyanın şərtlərinə əməl etmək, onun həyata keçirilməsini xatırlatmaq məqsədi ilə müraciət etməyə şərait yaradır" – deyə müqavilənin tərtib olunması ilə məşğul olan komitənin sədri Don Makey bildirdi.

Lakin, Konvensiyada göstərilən hüquqların həyata keçirilməsi üçün ictimai fikrin əsaslı dəyişdirilməsinə ehtiyac var. Konvensiyada əlillik – zədəli insanlar və ətrafdakı maneələr arasında bu insanların digərləri ilə eyni əsaslarla cəmiyyətdə tam və effektiv iştirakına mane olan qarşılıqlı münasibətin nəticəsi kimi müəyyən olunur. Konvensiyada müəyyən olunmuş məqsədlərin həyata keçirilməsi üçün, əlillərə olan münasibətin dəyişdirilməsi çox vacibdir.

"Əsas mahiyyət neqativ fikrin aradan qaldırılmasıdır" – deyə Merrill Lynch bankının vitse-prezidenti və anadangəlmə əlil olan Kris Sallivan bildirdi. "İnsanda əlil deyil, şəxsiyyəti görmək çox vacibdir. Bunun üçün bizim hə" birimizin düşüncəsinin dəyişdirilməsi lazımdır"

Bu barədə əlavə məlumatı http://www.un.org/disabilities veb saytında və ya BMT-nin İnformasiya və Nəşr Şöbəsində məlumat ala bilərsiniz. Bunun üçün bu adresə email göndərməniz tələb olunur: mediainfo@un.org.